## Seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvünün funksiyaları
## (Maddə 65)

- Daimi surətdə seçki qutusunun yanında olmalısınız.
- Seçki qutusuna və xüsusi zərflərə nəzarət etməlisiniz.
- Seçki qutusundakı xüsusi zərfin atıldığı kəsik qapalı olmalıdır.
- Gizli səsvermə kabinəsindən seçici çıxdıqdan sonra ona göstəriş verin ki, ayrıca qoyulmuş masanın üzərindən müstəqil olaraq bir xüsusi zərf götürsün və qatlanmış seçki bülleteni onda yerləşdirsin.
- Seçicinin əlində yalnız bir zərf tutduğuna əmin olduqdan sonra, seçki qutusunun kəsiyini açın və seçiciyə xüsusi zərfi qutuya atmasına göstəriş verin.
- Seçicidən seçki məntəqəsini tərk etməyi xahiş edin.

**DİQQƏT!**

- Yalnız seçicinin seçki bülleteni xüsusi zərfdə yerləşdirmək hüququ vardır, fiziki vəziyyətə malik seçici istisna təşkil edir; əvəzində ,onun iştirakı ilə bülleten(lər)i öz arzusu ilə seçdiyi şəxs xüsusi zərfdə yerləşdirir və sonra onun köməyi ilə zərfi seçki qutusuna atır, həmçinin səsvermə kabinəsində seçki bülleteninin doldurulmasında ona yardım göstərir.
- Səsvermə qutusunun yanında eyni vaxtda bir nəfərdən çox seçicinin olması yolverilməzdir.
- Seçki komissiyası üzvünün doldurulmuş seçki bülleteni açmaq hüququ yoxdur.
- Seçici xüsusi zərfdə bülleteni yerləşdirənə qədər ondan əlində müvafiq sayda seçki bülleteni və bir zərf olduğunu göstərməyi tələb etmək hüququnuz vardır.